**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyun tarixli 119 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında Dövlət və ictimai ekoloji ekspertizanın həyata keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında**

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 may tarixli 184 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və ictimai ekoloji ekspertizanın həyata keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 509 nömrəli Qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyun tarixli 119 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında Dövlət və ictimai ekoloji ekspertizanın həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.8. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qaydanın 2.8 -1-ci bəndinin tələbləri nəzərə alınmaqla, ərizəyə aşağıdakı sənədlər əlavə edilir:".

1.2. Aşağıdakı məzmunda 2.8-1-ci bənd əlavə edilsin:

"2.8-1. Dövlət ekoloji ekspertizasının keçirilməsi üçün zəruri olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar sifarişçidən tələb edilmir. Belə sənədlərin və ya

məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi sifarişçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya sifarişçi tərəfindən təmin edilir.”.

1.3. 2.12-ci bənd üzrə:

1.3.1. birinci cümləyə “sənədlərin” sözündən sonra “(bu Qaydanın 2.8-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)” sözləri əlavə edilsin;

1.3.2. üçüncü cümləyə “barədə” sözündən sonra “(bu Qaydanın 2.8-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)” sözləri əlavə edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “5” fevral 2024-cü il

№ 7